*Müslüm Maqomayev - 140*

# Böyük bəstəkarın həyat yoluna bir nəzər



Müslüm Maqomayevin mədəniyyət tariximizdə bəstəkar, dirijor, pedaqoq kimi xüsusi yer var. Əslən Qax rayonunun İlisu kəndindən olan Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev 18 sentyabr 1885-ci ildə Şimali Qafqazın Terek vilayətindəki Qroznı şəhərində dəmirçi ailəsində dünyaya gəlib. Əvvəl Qroznıda, sonra isə Qori müəllimlər seminariyasında təhsil alıb. Seminariyada Üzeyir Hacıbəyli ilə tanış olub, bu tanışlıq sonralar dostluğa, yaxın qohumluğa çevrilib - hər ikisi Terequlova bacıları ilə evlənib.

M.Maqomayev hələ tələbəlik illərində skripkada, qaboyda ifa etməyi, dirijorluğu öyrənib. Seminariyadan məzun olduqdan sonra təyinat üzrə 1904-cü ildə Şimali Qafqazda, 1905-ci ildə Lənkəranda müəllimlik etməyə başlayıb. 1909-cu ildə Tiflis Pedaqoji İnstitutunda imtahan verərək şəhər məktəblərində müəllimlik hüququ alandan sonra 1911-ci ildə Bakıya köçüb, şəhər kollecində işə düzəlib.

Azərbaycan Dövlət Tarix Arxivində qorunan "Bakı-Dağıstan xalq məktəblərinin rəhbərliyi" fondunun "Müslüm Maqomayevin xidməti haqqında şəxsi işi" adlı saxlanma vahidində onun 1914-1919-cu illərdəki əmək fəaliyyəti barədə qeydlər var. Sabunçudakı şəhər məktəbindən Alekseyevsk məktəbinə yerdəyişmə üçün yazılan rəy və yazışmalar Maqomayevin təhsil dairəsində müəllim kimi böyük nüfuza malik olmasını təsdiqləyir.

Daha bir maraqlı sənəd 16 yanvar 1919-cu ildə Azərbaycan Cümhuriyyətinin xalq təhsili naziri Nəsib bəy Yusifbəyli tərəfindən verilən əmrin surətidir. Əmrdə deyilir ki, 3-cü Ali-ibtidai məktəbin müəllimi Əbdülmüslüm Maqomayev 1-ci Ali-ibtidai məktəbin inspektoru təyin edilsin (f.309, siy.2, sax.vah.46, vərəq 8).

Bundan əlavə, 1917-1918-ci illərə dair "Ali-ibtidai məktəblərin proqramı ilə özəl kursların rəhbəri Əbdülmüslüm Maqomayevlə kursların müstəqil özəl ali-ibtidai məktəbə çevrilməsi haqqında yazışmalar" adlı saxlama vahidində yaradılan kursların fəaliyyətinə icazə alınması üçün yazılan müraciətlərdən bəhs edilir (f.309, siy.1, sax.vah.1261, vərəq 1-4).

1920-ci ildə Maqomayev Azərbaycan SSR Təhsil İşçiləri Birliyinin sədri, 1921-ci ildə Xalq Təhsil Komissarlığının incəsənət şöbəsinin müdiri seçilir. Sonralar Azərbaycan Dram Teatrının bədii rəhbəri, Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru, 1929-cu ildən isə Azərbaycan Dövlət Radiosu Komitəsində musiqi şöbəsinin müdiri təyin edilir.

M.Maqomayev on beşə yaxın simfonik əsərin, o cümlədən iki opera, marşlar və bir neçə rapsodiyanın müəllifidir. "Nərgiz" operası klassik musiqi və səhnə forması üzərində qurulmuş Avropa üslublu ilk Azərbaycan operası sayılır.

Bəstəkar həm də geniş kütlə arasında yayılmış, rəğbətlə dinlənilən bir çox mahnıların müəllifidir. O, Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" tamaşalarına musiqi bəstələyib. Üç yüzdən artıq Azərbaycan xalq mahnı və rəqslərinin simfonik işlənməsi də M.Maqomayevə aiddir. Təəssüf ki, müəyyən səbəblər üzündən "Sevgi" operasını, "Dəli Muxtar" baletini və "Xoruz bəy" musiqili komediyasını bitirə bilməyib.

Əməkdar incəsənət xadimi (1936) fəxri adına layiq görülən bəstəkar, ömrünün 52-ci ilini tamamlamağa az qalmış - 28 iyul 1937-ci ildə Nalçik şəhərində dünyasını dəyişib, Bakıda - Fəxri xiyabanda dəfn edilib.

Bəstəkarın vəfatının beşinci ilində doğulan nəvəsinə onun adı verilib. İllər sonra nəvə Müslüm Maqomayev görkəmli Azərbaycan-sovet opera və estrada müğənnisi olaraq şöhrət qazandı.

Dahi Üzeyir Hacıbəyli ilə yanaşı, Müslüm Maqomayevin də doğum günü olan 18 sentyabr ölkəmizdə Milli Musiqi günü kimi qeyd edilir. Hər il bu musiqi bayramında xalqın qəlbində onun da unudulmaz xatirəsi təzələnir.

**Rövşən YERFİ**